**AUDİT 2023, 4 (42), səh. 15-24.**
**AUDIT 2023, 4 (42), pp. 15-24.**
**АУДИТ 2023, 4 (42), стр. 15-24.**

**DOI: 10.59610/bbu4.2023.4.2**

*Aydəmirov Mübarək Mübariz oğlu,*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: mubarekmubarizoglu@gmail.com*
*© Aydəmirov M.M., 2023*

**UOT – 657.6**

# SATIŞ MÜƏSSİSƏLƏRİNDƏ UÇOT VƏ AUDİTİN RƏQƏMSALLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi -** zamanla texnologiyada baş verən kütləvi dəyişikliklər nəticəsində ERP sistemlərini tətbiq etməklə mühasibat uçotu və audit peşəsinin rəqəmsallaşdırılması istiqamətlərini əsaslandırmaqdır.

**Tədqiqatın metodologiyası -** tədqiqatını apardığımız mövzu hazırkı dövrün aktual mövzusu olduğu üçün tədqiqat zamanı ilk öncə təhlil aparılmış, daha sonra abstraktlaşdırma aparılmaqla daha əhəmiyyətli hissələr dəyərləndirilmiş və sonda sintez edilməklə yekun nəticələr əldə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** satış müəssisələrinin uçot və audit sistemində rəqəmsal texnologiyaya olan tələbi müəyyən etmək və onun praktiki tətbiqi imkanlarını qiymətləndirməkdir.

**Tədqiqatın nəticələri -** satış müəssisələrində uçot və auditin rəqəmsallaşdırılması istiqamətləri əsaslandırılmışdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** müxtəlif dövrlərdə satış müəssisələrinin uçotu, auditi və rəqəmsal texnologiya ayrı-ayrılıqda tədqiq edilsə də, onların kompleks tədqiqi və bunun nəticəsi olaraq rəqəmsal texnologiyanın satış müəssisələrinin uçot və audit sistemindəki zəruriliyi əsaslandırılmış, nəzəri və praktiki təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** ERP sistemləri, rəqəmsallaşdırılma, mühasibat uçotu və audit, avtomatlaşdırılma, şəffaf informasiya.

## G İ R İ Ş

Zamanla texnologiyada baş verən kütləvi dəyişikliklər nəticəsində ERP sistemlərinin tətbiqi şəraitində mühasibat uçotu və audit peşəsinin rəqəmsallaşdırılması mümkünlüyünü müşahidə etməkdir. Həmçinin, ERP kimi informasiya sistemlərindən istifadə etməklə mühasibat uçotu və audit peşəsinin rəqəmsallaşdırılmasının müsbət və mənfi tərəflərinin araşdırılması ilə onun zəruriliyini qiymətləndirmək lazımdır. İnformasiya sistemləri kimi ERP sistemləri, mühasibat uçotu və auditin idarə edilməsində və aparılmasında, peşəkar mühasiblərə və auditorlara labüddür. Burada mühasibatlıq və audit peşəsinin rəqəmsallaşdırılması mümkünlüyünü təyin etmək üçün istifadə edilən tədqiqat metodu ERP informasiya sistemlərinin təhlilini aparmalı, onun imkanlarının genişliyini, mühasibatlıq və audit sistemindəki bəzi çatışmazlıqların aradan qaldırılmasını qiymətləndirməyə malik olmalı idi. Məhz spesifik metod üzrə aparılan araşdırmadan sonra müəlliflər mühasibat uçotu və audit peşəsinin rəqəmsal-

AUDİT 2023, 4 (42), səh. 15-24.
AUDIT 2023, 4 (42), pp. 15-24.
АУДИТ 2023, 4 (42), стр. 15-24.

laşdırıla biləcəyi qənaətinə gəliblər. Çünki ERP informasiya sistemlərindən istifadə etmək, çoxlu sayda tapşırıqların avtomatlaşdırılmasına, onların dəqiq işlənməsinə, vaxta qənaət edilməsinə və şəffaflığın qorunmasına imkan verir.

Müasir dövrdə dünyada proseslərin sürətləndirilməsi və asanlaşdırılması ilə yanaşı, şəffaflaşdırmanın artırılması ilə bağlı müxtəlif layihələr icra edilir. Hazırkı dövrdə uçot və auditin də təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. Dünyada hazırda innovativ rola malik olan rəqəmsal texnologiyalar uçot və auditdə də kifayət qədər tətbiq edilə bilər. Belə ki, uçot və auditin rəqəmsallaşdırılmasının təkmil şəklində aparılmasına satış müəssisələrindən başlamaq daha məntiqli səslənir. Çünki tikinti, istehsal, sənaye və digər bu kimi şirkətlərin mühasibatlıq sistemi çox mürəkkəb tərkibdən ibarətdir. Əgər həmin istiqamətlərdən yeniliyin tətbiqinə başlanılsa, prosesin izlənilməsini və tam yerinə yetirilməsini təmin etmək çox çətinləşər və hər hansı gözlənilməz kənarlaşma baş verdiyi təqdirdə də, həmin kənarlaşmanın aradan qaldırılmasına çox zaman sərf etmək lazım olar. Lakin nəzərə alsaq ki, satış müəssisələrinin mühasibatlığı digər şirkətlərlə nisbətdə daha nəzarətdə saxlanıla bilən və eyni zamanda da əməliyyatların sürətlə getdiyi bir mühasibatlıq sistemidir, o zaman biz doğru istiqamətin rəqəmsallaşdırılmasını ilkin hədəf olaraq müəyyən etdiyimizdən əmin ola bilərik. Lakin bunun üçün zəruri araşdırılmaların aparılması mütləq hesab edilir. Belə ki, satış müəssisələrində rəqəmsallaşdırmanın tətbiqi imkanları, xüsusən də satış müəssisələrində uçot və auditin rəqəmsallaşma imkanları dəyərləndirilməlidir.

Eyni zamanda məqsədlərdən biri də ERP kimi informasiya sistemlərindən istifadə etməklə mühasibat uçotu və audit peşəsinin rəqəmsallaşdırılmasının müsbət və ya mənfi tərəflərini təhlil etmək, zəruriliyi ilə bağlı yekun nəticə əldə etməkdir.

İnformasiya sistemləri kimi ERP sistemləri mühasibat uçotu və auditin aparılmasında, peşəkar mühasiblərə və auditorlara dəstək verməkdə əsas rol oynayır. ERP informasiya sistemləri vasitəsilə mühasibat uçotu və audit peşəsinin rəqəmsallaşdırılmasının mümkünlüyünü müəyyən etmək üçün istifadə edilən tədqiqat metodu arxivin təhlilinə, yəni müxtəlif verilənlər bazalarından, seçilmiş məqalələrdən məlumatların toplanmasına əsaslanır. Tədqiqatın yekununda müəlliflər belə qənaətə gəliblər ki, mühasibat uçotu və audit peşəsini ERP informasiya sistemlərindən istifadə etməklə rəqəmsallaşdırmaq olar, çünki bu, çoxlu sayda tapşırıqların avtomatlaşdırılmasına imkan verir və bu sistemlərlə emal olunan informasiyalar daha şəffaf və dəqiqdir [1].

**Mühasibat uçotu və auditin avtomatlaşdırılması**

Ədəbiyyatda mühasibat peşəsi çox vaxt "təkamül edən canlı varlıq" ilə müqayisə edilir. İT sahəsində baş verən innovasiyalar mühasibatlıq və audit sisteminə də öz təsirini göstərir. Müasir mühasibatlıq və audit sistemi aparılan proseslərin avtomatlaşdırılmasını tələb edir. Həmin avtomatlaşma isə həyata keçirilən modullar vasitəsilə iş tapşırıqlarının yerinə yetirilməsini təmin edən ERP sistemlərinin tətbiqi və süni intellektin nəticəsində mümkündür. Belə ki, mühasibatlıq və audit çox geniş bir istiqamət olduğu üçün, ERP sistemlər nəticəsində avtomatlaşmanın aparılması, süni intellektin inteqrasiyası ilə qərarvermələrin və təhlillərin sürətləndirilməsi çox labüd hesab edilir. İnformasiyalar üzərində əməliyyatların ERP vasitəsilə sürətli icra edilməsi, daha sonra təhlillər və qərarvermə zamanı süni intellektin üstünlüklərindən faydalanma, birbaşa olaraq vaxtın səmərəliliyini artırmaq və vaxta qənaət etmək anlamına gəlir. Professional mühasiblər, auditorlar və maliyyəçilər ERP sistemlərindən istifadə etməklə mühasibat uçotu proseslərinin avtomatlaşdırılması nəticəsində konsaltinq, təhlil və strateji

AUDİT 2023, 4 (42), səh. 15-24.
AUDIT 2023, 4 (42), pp. 15-24.
АУДИТ 2023, 4 (42), стр. 15-24.

planlaşdırma işlərini həyata keçirə bilər. Mühasibatlıq peşəsinin rəqəmsallaşdırılması bunlardır: nəticələrin və ya məlumatların şöbələr arasında səmərəli əlaqəsi (çünki emal edilmiş məlumatlar ERP sisteminin məlumat bazasında saxlanılır), sənədlərə sürətli çıxış və bu sistemlərlə məlumatların daha sürətli işlənməsi.

**ERP sistemlərinin mühasibat uçotunun qərarvermələrində rolu**

ERP sistemləri maliyyə menecerlərlərinə və auditlərə bütün təşkilatın daha mürəkkəb maliyyə baxışına sahib olmaq imkanını təklif edir. ERP sistemlərinin tətbiqi, ümumilikdə bütün təşkilata əhəmiyyətli təsir edir, çünki ERP tərəfindən verilən məlumatlar menecerlərin təşkilatın bütün fəaliyyəti ilə bağlı qərarlarını əsaslandırmaqda dəstək verir [6]. Ümumiyyətlə, ERP sistemlərinin tətbiqi kifayət qədər baha başa gəlir və bəzən şirkət daxilində təcrübəyə əsaslanan sistemin mövcud olmaması səbəbindən formalaşan uğursuzluqlar təşkilata dağıdıcı təsir göstərir (məsələn: iflas). Beləliklə, ERP sistemlərinin tətbiqindən bir il sonra baş verən dəyişiklikləri müqayisə edən maliyyə-mühasibat məlumatı istifadəçiləri məlumatların daha əlçatan və sürətli olduğunu bildirmişdir. ERP sisteminin tətbiqindən sonrakı faydalarına aşağıdakı sxem üzərindən nəzər yetirə bilərik:




***Sxem 1.***

ERP sistemlərini tətbiq etmiş təşkilatların menecerləri resurslarında əhəmiyyətli bir artım, səmərəlilik və daha yaxşı performans nəzarəti gördülər.

**ERP sistemlərinin auditdə rolu**

Audit peşəsinin rəqəmsallaşdırılması prosesinə gəlincə, rəqəmsal infrastruktur (platforma, proqram təminatı) nəzərə alınmalıdır ki, o, audit qrupunun üzvləri ilə yoxlanılan təşkilat arasında əlaqəni təmin edir. Yəni, auditin verdiyi rəyin şəffaf olması, şirkətin mövcud vəziy-

AUDİT 2023, 4 (42), səh. 15-24.
AUDIT 2023, 4 (42), pp. 15-24.
АУДИТ 2023, 4 (42), стр. 15-24.

yətini doğru şəkildə ifadə etməsi proqramın təhlil və analiz qabiliyyətindən asılıdır. Audit prosesinin rəqəmsallaşdırılması audit qrupuna ERP sistemlərində hər hansı uyğunsuzluqları müəyyən etməyə imkan verir. Həmçinin, şirkəti insan faktoruna əsaslanan bəzi maxinasiya-lardan sığortalamaq üçün bu tipli proqramlar effektiv hesab edilir. Audit prosesinin avtomat-laşdırılmasının faydaları ERP sistemləri ilə işlənmiş məlumatların daha dərindən başa düşül-məsi, eləcə də fırıldaqçılığa nəzarətin daha effektiv monitorinqi və maliyyə-mühasibat hesabatı proseslərinin bunun əsasında təkmilləşdirilməsi üçün tövsiyələrin verilməsidir [4].

Demək olar ki, satış prosesləri, ümumiyyətlə topqdan və pərakəndə fəaliyyətin oxşar xüsusiyyətləri ilə qruplaşdırılır. Həmin proseslər nə qədər asan görünsə də, praktiki olaraq tətbiq edilməsi göründüyü qədər asan hesab edilmir. Buna görə də insanlar iş prosesinin axı-nının asanlaşdırmaq üçün müxtəlif rəqəmsallaşdırma sistemlərinə ehtiyac duyurlar. Son dövr-lərdə topdan və pərakəndə fəaliyyətlərdə həyata keçirilə bilən mühasibatlıq tətbiqləri çox asanlaşır. Belə ki, bütün istiqamətlərdə rəqəmsallaşma prosesi sürətlə irəliləyir.

Bütün sahələr kimi, satış müəssisələri də uçot ilə qarşılıqlı əlaqədədir. Bunlardan birin-cisi, idarəetmə uçotu ilə satış fəaliyyətinin qarşılıqlı əlaqəsidir. Bu bir həqiqətdir ki, idarəetmə uçotu bütün satış fəaliyyətlərin həyata keçirilməsində ən təsirli uçot növü hesab edilə bilər. İdarəetmə uçotunun əhatə dairəsinin genişliyi və fəaliyyət sahəsinin səmərəliliyi ondan pərа-kəndə biznesdə effektiv idarəetmə vasitəsi kimi istifadə olunması ilə nəticələnmişdir. İdarə-etmə uçotu tətbiqləri məhsulun alınmasından satış sonrası əməliyyatlara qədər, demək olar ki, bütün əməliyyatlarda istifadə edilə bilər.

İdarəetmə uçotunun rəqəmsal olaraq ifadə edilə bilən bütün dəyərləri nəzərə alaraq biz-nes tələblərini şərh etməyə imkan verməsi pərakəndə fəaliyyətdə böyük faydalar təmin edir. Bununla yanaşı, məhsul təchizatçıdan alınaraq mağazalara və satış nöqtələrinə göndərildiyi təqdirdə, fəaliyyətin effektivliyi və səmərəliliyi də rəqəmsal tətbiqlər ilə sınaqdan keçirilə bilər.

**Satış müəssisələrində öhdəliklərə nəzarət**

Satış fəaliyyətində öhdəliklərin uçotunun düzgün tənzimlənməsi mühüm faktorlardan sayılır. Öhdəliklərin uçotu idarəetmə uçotunun bir alt sahəsi kimi görünsə də, pərakəndə fəaliyyətdə onun əhəmiyyəti əlavə araşdırma tələb edir. Bu gün müəssisələrin böyüməsi, onların təşkilati strukturlarının getdikcə genişlənməsi və mürəkkəbləşməsi müxtəlif səviyyəli müəssisələrdə rəhbər vəzifələrdə çalışan işçilərin iş yükünü artırmışdır. Müəssisədə rəhbər vəzifədə çalışan şəxsdən müəssisədə görülən işlərin hamısını bilməsini gözləmək olmaz və bu şərtlər altında o, nəzarət edə bilmədiyi və heç bir məlumatı olmayan işlərə görə məsuliyyət daşımamalıdır. Bəzi hallarda səmərəliliyi təmin etmək üçün şirkətin müxtəlif əməkdaşları ilə məsuliyyət müqaviləsi bağlanılır. Həmin müqavilə şirkət daxilində işlərin icrasına görə iş-çiləri öhdəliyə cəlb edir. Bu tipli öhdəliklərin uçotunun aparılması pərakəndə biznesdə olduq-ca tez-tez və geniş şəkildə istifadə olunur. Müxtəlif mənfəət mərkəzlərinin idarə olunmasında menecerlərin məsul olduqları sahələrin müəyyən edilməsi idarəetmənin səmərəliliyinin təmin edilməsində çox vacibdir. Məhz bu situasiyada da rəqəmsallaşma öz effektivliyini göstərə bilər. Belə ki, artan iş yükü nəzərə alınmaqla, rəqəmsal texnologiyaların tətbiqi nəticəsində məhdud vaxt çərçivəsində daha səmərəli nəticələr əldə etmək mümkündür.

Toplana və hesabat verilə bilən sistem nəzarət və avtomatlaşdırmanı xüsusilə çoxlu filial və ya şöbələri olan bizneslərdə effektiv edir. Pərakəndə biznesdə şöbələşdirmə və ya filiallaşma asan olduğundan, ödəliklərin uçotu tətbiqləri də çox effektiv və asanlıqla tətbiq oluna bilər.

AUDİT 2023, 4 (42), səh. 15-24.
AUDIT 2023, 4 (42), pp. 15-24.
АУДИТ 2023, 4 (42), стр. 15-24.

**Topdan və pərakəndə satış müəssisələrində informasiya transformasiyası**

İnkişafı informasiya sistemlərinin effektivliyini daha da artırmış və bu artan effektivlik sistemlərin menecerlər tərəfindən istifadə edilən mühüm inzibati vasitələrdən birinə çevrilməsinə səbəb olmuşdur. Mürəkkəb problemlərin həllində böyük tələb olan informasiyanın idarə edilməsi informasiya sistemi tərəfindən menecerlər üçün hazırlanır [5]. Satış müəssisələri üçün idarəetmə informasiya sistemi daxilində mühasibat uçotu və pərakəndə informasiya sistemləri xüsusi əhəmiyyət kəsb edir. Mühasibat uçotunun tərkibinə daxil olan informasiya yaratmaq funksiyası idarəetmə informasiya sistemində uçot informasiya sisteminin əhəmiyyət qazanmasına səbəb olur. Bu əhəmiyyət topdan və pərakəndə sektorda idarəetmə uçotunun tətbiqi sayəsində artır. Topdan və pərakəndə satıcılar texnologiya və informasiya şəbəkəsinin köməyi ilə mühasibat proqramlarının istifadə olunduğu effektiv məlumat sistemi yaratmağa çalışırlar. Mühasibat uçotunun informasiya sistemini rəqəmsallaşmış informasiya proqramı kimi müəyyən etmək daha düzgün olardı. Proqram qısaca olaraq sistemin şərtlərinə və məqsədinə uyğun olan girişləri mənalı çıxışlara çevirən bir struktur kimi nəzərə alınarsa, demək olar ki, hər bir sistemin informasiya girişi var. Belə başa düşülür ki, bu axın ikitərəfli olmalıdır, çünki mühasibat uçotu informasiya sisteminin məlumat istehsal etməsi üçün məlumatlar sistemə daxil edilməlidir. Mühasibat uçotu informasiya sistemi təkcə rəhbərlik və maraq qrupları üçün şərh edilə bilən məlumat istehsal etmir, həm də bu məlumatı istehsal etmək üçün əks məlumat axınına ehtiyac duyur.

Müəssisələrin rəqəmsal transformasiyası həyata keçirilərkən müəssisələrin maliyyə departamenti ənənəvi mühasibat uçotu sistemindən strateji maliyyə, biznes maliyyəsi və həmçinin də özündə xidməti birləşdirən maliyyənin idarəetmə rejiminə keçid etməlidir. Maliyyə şirkətlərinin strukturu strateji maliyyə və birgə maliyyənin mərkəzləşdirilmiş maliyyə siyasəti kimi qəbul edilməsi prinsipini əsas tutmaqla, strateji maliyyə sahəsində şirkətlərin ümumilikdə maliyyə siyasətinə, planlaşdırma metoduna, qayda və qanunlarına, əsas vəsaitlər hesab edilən uzunmüddətli aktivlərinə, insan resurslarına və həmçinin də biznes risklərinə diqqət ayırır. Hər bir törəmə müəssisənin əsas maliyyə komandası maliyyəni düzgün idarə etmək və bədxərcliyi azaltmaq üçün mərkəzləşmiş maliyyə mərkəzinə və vahid biznes iş prosesinə diqqət ayırır. Əlbəttə ki, maliyyə sahəsində gedən, tərəfimizdən yuxarıda sadalanan dəyişikliklər satış müəssisələrində də müxtəlif istiqamətlərdə, lakin oxşar formada özünü büruzə verir. Aydın məsələdir ki, satış müəssisələrində əsas məqsəd məhsulun müştəriyə sürətlə ötürülməsi olduğu üçün, burada təkmilləşmiş rəqəmsal texnogiyalar tərəfindən uçotun təşkil edilməsinə çox böyük ehtiyac vardır.

Fərdiləşdirilmiş və ixtisaslaşmış əlaqəli biznes sektorlarını özündə etiva edən mərkəzləşdirilmiş biznes maliyyəsi ənənəvi maliyyəyə nisbətdə daha effektiv biznes və maliyyə nəticələrinə malikdir.

Rəqəmsal texnoligiyanın işi sadəcə olaraq şirkətin fon maliyyələşdirilməsinə töhfə verməklə yekunlaşmış hesab edilmir. Rəqəmsal texnologiya, həmçinin müxtəlif biznes layihələrində şirkət üçün öncədən maliyyə proqnozlaşdırmasını, prosesdaxili nəzarəti və post-geri əlaqəni təmin edir. Nəticədə, hər bir layihənin qərar qəbul etmə prosesinə vaxtında və səmərəli şəkildə dəstək verilir. Maliyyə transformasiyasının baş verməsi üçün satış ilə maliyyə in-

AUDİT 2023, 4 (42), səh. 15-24.
AUDIT 2023, 4 (42), pp. 15-24.
АУДИТ 2023, 4 (42), стр. 15-24.

teqrasiya edilməlidir. Biznes, mühasibat uçotu və idarəetmə prosesləri bütün firmanın gündəlik idarə olunmasını və daha da genişlənməsini dəstəkləyən üç əsas şirkət prosesidir. Maliyyə inteqrasiyası vahid məlumat mənbəyinə nail olmaq üçün informasiya texnologiyalarına əsaslanan bu üçünün təbii şəkildə inteqrasiyası prosesidir. Həmin sistem bütün şirkətlər üçün eyni olaraq görünsə də müzakirə obyektimiz olan satış müəssisələrinə daha çox təsir edir.

Rəqəmsal texnologiya ideyasını vermək üçün müəssisənin bütün istehsal prosesinə və fəaliyyətinə sənaye və maliyyənin daxil edilməsi zərurəti yaranır. Ümumilikdə götürsək, maliyyə və sənaye müxtəlif tipli şirkətlərdə az da olsa rəqəmsallaşıb. Lakin nəzərə alsaq ki, rəqəmsal texnologiya vaxta qənaət və şəffaflıq ilə yanaşı, qərarvermə prosesinə təsir edir, bu zaman qəbul etmək lazımdır ki, satış müəssisələrində rəqəmsal texnologiyaya daha çox ehtiyac var. Rəqəmsal texnologiya satış müəssisələrində dayanmadan gedən sürətli satış prosesinin uçotuna və həmin uçotun şəffaflığına kifayət qədər effektivlik qata biləcəkdir.

**Maliyyə transformasiyasının zəruriliyi**

Maliyyə transformasiyası şirkətin daxilində çox mühüm rol oynayır. Konkret olaraq, satış müəssisələrinin maliyyə şöbəsi aşağıdakı iki istiqamətə diqqət yetirməlidir. Bir tərəfdən, maliyyə məlumatlarının üfüqi inteqrasiyası yolu ilə yığcam verilənlər bazasının yaradılması, yeganə məlumat mənbəyinin yerləşdirilməsinin təmin edilməsi və çoxölçülü biznes haqqında hərtərəfli anlayış yaratmaq üçün məlumat inteqrasiyası aparılmalıdır. Rəqəmsal texnologiya arxitektura və biznes formatlarının inteqrasiya olunmuş məlumat emalı mexanizmini, biznes prosesləri və informasiya sistemləri arasında cəlbedici əlaqəni tamamlamaq, biznes və maliyyə məlumatlarının qarşılıqlı əlaqəsinin həqiqiliyini, bütövlüyünü və vaxtında olmasını təmin etmək üçün, maliyyə və biznes məlumatlarını inteqrasiya etmək və sinxronlaşdırmaq üçün istifadə edilir. Eyni zamanda, auditorlara dəstək olacaq məlumatların əldə edilməsi, toplanması və idarə edilməsi də vacibdir. Həmin məlumatlar, müəssisənin daxili və xarici əlaqəri haqqında rəy bildirməyə kömək edir və biznes idarəçiləri üçün qərarların qəbulu ilə bağlı obyektiv və şəffaf maliyyə hesabatlarının təqdim edilməsini təmin edir. Digər tərəfdən, büdcənin doğru idarə edilməsinə üstünlük verilməlidir. Büdcənin doğru idarə edilməsi əməliyyat vəziyyətini daha obyektiv şəkildə proqnozlaşdıra, bütün biznes tərəflərinin maraqlarını bir-biri ilə əlaqələndirə və biznes risklərini azalda bilər.

Platformasiya, əməkdaşlıq, avtomatlaşdırma və kəşfiyyat rəqəmsal transformasiyanın əsasını təşkil edir. Maliyyə mübadiləsi geniş miqyaslı təsirlərə əsaslanan səmərəliliyin artırılmasına nail ola bilər.

Rəqəmsal texnologiya maliyyə və auditdə əsas rol oynayır, buna görə də daha da onu optimallaşdırmaq, maliyyə paylaşımını inteqrasiya etmək və maliyyə paylaşma platforması qurmaq lazımdır.

Rəqəmsal maliyyə transformasiyasının həyata keçirilməsi maliyyə idarəetmə modelinin tətbiqini zəruri edir. İnformasiya sistemi maliyyə idarəetməsinin transformasiyası və təkmilləşdirilməsinin təməl daşıdır. Mühasibat uçotunun rəqəmsallaşdırılması müəssisənin maliyyə qurumlarından mümkün qədər tez və mükəmməl rəqəmsal idarəetmə sistemi yaratmağı tələb edir. Yaxşı infrastruktur informasiyalaşdırmanın həyata keçirilməsi üçün ilkin şərt və rəqəmsal maliyyə transformasiyasına doğru ilk addımdır. Çünki yalnız yeni texnologiyalar və yeni

AUDİT 2023, 4 (42), səh. 15-24.
AUDIT 2023, 4 (42), pp. 15-24.
АУДИТ 2023, 4 (42), стр. 15-24.

sistemlərlə maliyyə ssenarilərinə uyğunlaşaraq, eyni informasiya sistemi platformasında vahid mühasibat uçotu hesabları ilə, eyni maliyyə sistemi və prinsipləri ilə və uyğun biznes emalı prosesi ilə müəssisələrin uyğunlaşdırılmış əməliyyat-larını qeyd etməklə, məlumat əldə edilə bilər. Maliyyə məlumatlarının keyfiyyətinin yüksəl-dilməsi, ayrılması, çeşidlənməsi, inteqrasiyası, işlənməsi, təhlili və partiyalar şəklində təqdim edilməsi satış prosesinin sürətlənməsinə və nəticədə dövriyyənin artmasına gətirib çıxara bilər. Təkcə satış müəssisələri deyil, bütün kommersiya təşkilatları öz informasiya sistemlərini təkmilləşdirmək üçün gələcəkdə rəqəmsal texnologiyadan istifadə etməli olacaqlar.

Mühasibat uçotunun rəqəmsal transformasiyası müəssisənin idarəetmə və satış komandasına daha səmərəli qərarlar qəbul etməyə kömək edə bilər. İlk növbədə, maliyyə məlumatlarının düzgünlüyü əsasdır. Müəssisənin fəaliyyəti maliyyə statistikasında öz əksini tapır. Dərin təhlil və emal müəssisə əməliyyatlarının zəif əlaqələrini müəyyən etməyə kömək edə bilər və müvafiq məlumatların toplanması əsasında satış qərarları üçün obyektiv əsas formalaşa bilər. ERP və Yongyou (mühasibat proqramı) kimi maliyyə sistemləri şirkətin məlumatlarını daha effektiv şəkildə toplaya bilər ki, bu da daha asan idarəetmə üçün şirkətin sturukturunun təkmilləşdirilməsinə və vahid birləşməsinə imkan verir. Sistem korporativ məlumatları daha şəffaf edir və menecerlər müəssisənin fəaliyyətini yoxlamaq istəyərkən həmin məlumatlara daha asan formada daxil ola bilərlər. Bu məlumatların dəqiqliyi və vaxtında olması təşkilatlara daha yaxşı qərarlar qəbul etməyə, onların maliyyə vəziyyətini və meyillərini daha yaxşı başa düşməyə və bizneslərinin gələcək istiqamətlərini daha yaxşı planlaşdırmağa kömək edə bilər. Satış müəssisələri mühasibat uçotu şöbəsinə daha çox diqqət yetirməlidirlər, çünki onlar mühasibat məlumatlarının və ya hesabatların doğru olmamasına, vaxtında təqdim edilmədiyinə şübhə edirlər. Üst rəhbərlik komandası maliyyə hesabatının tamlığını və düzgünlüyünü tanıya bilmir. Rəqəmsal transformasiya vasitəsilə hesabatdakı hər bir məlumat sistemdə izlənilə bilər. Rəqəmsal transformasiya hesabatın keyfiyyətini yaxşılaşdıra və insanların buraxdığı səhvləri azalda bilər. Məlumatların keyfiyyəti, məlumatların əlçatanlığı, məlumatların vizuallaşdırılması və maliyyə məlumatlarının uyğunluğu maliyyə məlumatlarının dəqiqliyini artırmaq üçün bütün üsullardır. Əl əməliyyatlarını və səhvləri azaltmaq üçün məlumatların toplanması, işlənməsi və təhlilini avtomatlaşdırmaqla rəqəmsal transformasiya məlumatların dəqiqliyini və vaxtında təqdim olmasını təmin edə bilər. Mühasibat şöbəsi rəqəmsal transformasiya sayəsində maliyyə hesabatlarını və məlumatlarını daha tez və dəqiq yarada, biznesə daha yaxşı maliyyə məlumatları təqdim edə bilər. Maliyyə məlumatlarının saxlanması rəqəmsal transformasiya vasitəsilə mərkəzləşdirilə bilər ki, bu da onu istənilən vaxt və məkanda rəhbərlik və digər şöbələrə əlçatan edir. Bu real vaxt əlçatanlığı bizneslərə bazar dəyişikliklərinə və imkanlarına uyğunlaşmaq üçün daha sürətli qərarlar qəbul etməyə kömək edə bilər. Vizual alətlər rəqəmsal transformasiyada maliyyə məlumatlarını təqdim etmək və bizneslərə məlumat meyillərini və nümunələrini daha yaxşı anlamağa kömək etmək üçün istifadə edilə bilər. Bu, şirkətlərə problemləri və imkanları daha effektiv şəkildə müəyyən etməyə və daha yaxşı qərarlar qəbul etməyə kömək edə bilər. Rəqəmsal transformasiya bizneslərə ardıcıl məlumat qaydaları və standartlarını inkişaf etdirməyə kömək edə bilər. Nəticədə daha standartlaşdırılmış və müqayisə edilə bilən maliyyə məlumatlarının əldə edilməsi mümkün ola

AUDİT 2023, 4 (42), səh. 15-24.
AUDIT 2023, 4 (42), pp. 15-24.
АУДИТ 2023, 4 (42), стр. 15-24.

bilər. Bu, bizneslərə maliyyə məlumatlarını daha yaxşı müqayisə etmək, problemləri və imkanları müəyyən etmək və qərarlar qəbul etməkdə kömək edə bilər. Top menecment komandası şirkətin irəliləməsi və yanlış məqsədləri dərhal tənzimləməsi üçün daha dəqiq və uyğun strategiya yaratmaq üçün hesabata etibar edə bilər. Müəssisələrin mühasibatlıq şöbələri gələcək tendensiyaları və imkanları daha yaxşı proqnozlaşdırmaqla rəqəmsal transfermasiyadan faydalana bilərlər. Rəqəmsal transformasiya mühasibatlıq departamentlərinə böyük həcmdə məlumatları daha tez araşdırmaq imkanı verir ki, bu da onlara daha yaxşı bazar tendensiyalarını, istehlakçı ehtiyaclarını və rəqiblərin hərəkətlərini proqnozlaşdırmağa imkan verir. Rəqəmsal transformasiyadan keçən şirkətlər daha yaxşı təhlil və proqnozlaşdırma aparmaqda mühasibatlıq şöbəsinə kömək etmək üçün müxtəlif vasitələrdən istifadə edə bilərlər. Müəssisələr, məsələn, məlumatların təhlili və proqnozlaşdırılmasını avtomatlaşdırmaq üçün məlumatların öyrənilməsi və maşın öyrənmə üsullarından, məlumatları daha yaxşı təhlil etmək üçün qabaqcıl analitik vasitələrdən və gələcək tendensiyaları və imkanları qiymətləndirmək üçün proqnozlaşdırıcı modellərdən istifadə edə bilərlər. Bu maliyyə təhlili qərarların düzgünlüyünü təsdiqləməkdə, itkilərə nəzarət etməkdə və bazar riskini azaltmaqda top menecment komandasına kömək edə bilər. Mühasibat uçotunun rəqəmsal transformasiyasının çətinliyi peşəkar maliyyə komandasının yaradılmasıdır. Müəssisələr maliyyə işçilərinə xas olan düşüncə tərzini dəyişməli, ilk növbədə konsepsiyaya əməl etməli, transformasiyanın aktuallığını artırmalı, maliyyə personalına rəqəmsal maliyyə transformasiyasında fəal iştirak etməyi tələb olaraq irəli sürməli, maliyyə işçilərinin məsuliyyət və missiya hissini təkmilləşdirməlidir.

## YEKUN

Maliyyə departamenti şirkətdə maliyyənin təkmilləşdirilməsi ilə kadr transformasiyası prosesini həyata keçirməli, daha sonra rəqəmsal texnologiyanın əməkdaşlar üçün anlaşıqlı olması üçün onların yeni rəqəmsal texnologiyalar üzrə fərdi təlimə cəlb edilməsini təmin etməli və maliyyə komandalarının üzvləri üçün təşkilati strukturu, məsuliyyət mexanizmini, bacarıq modelini, təlim planını və karyera inkişaf yolunu tərtib etməlidir. Hansı ki, tərəfimizdən sadalanan həmin vəzifələr satış müəssisələrində daha hiperaktiv və sürətli icra edilməlidir.

Beləliklə, yaxın 20 ildə nəinki satış müəssisələri, hətta bütün istiqamətlərdə rəqəmsallaşmanın aparılmasınının əsas məqsədlərdən biri olması istisna edilmir. Belə ki, uçot və auditin rəqəmsallaşdırılması sənədləşmə işini sürətləndirəcək, baş vermə ehtimalı olan maliyyə kənarlaşmalarını minimuma endirəcəkdir. Nəzərə alsaq ki, satış müəssisələrində sənədləşmə prosesi müştəri məmnuniyyəti üçün sürətlə və dəqiq aparılmalı və baş verən maliyyə kənarlaşmalar da eyni anda azaldılmalıdır, deməli, uçot və auditin rəqəmsallaşdırılmasına satış müəssisələrində daha çox ehtiyac var və apardığımız araşdırma onu göstərir ki, uçotun və auditin rəqəmsal aparılması satış müəssisələrində kifayət qədər effektiv ola və gözlənilən nəticəni satış müəssisələrinə verə bilər. Nəzərə alsaq ki, rəqəmsal texnologiya avtomatlaşma prosesindən fərqli olaraq, çətin anda qərar verməyə də kömək edir, bu, satış müəssisələrində mənfəətliliyin artırılmasına böyük ölçüdə öz təsirini müsbət yöndə göstərəcəkdir.

**AUDİT 2023, 4 (42), səh. 15-24.**
**AUDIT 2023, 4 (42), pp. 15-24.**
**АУДИТ 2023, 4 (42), стр. 15-24.**

Mühasibat uçotunun rəqəmsal transformasiyası "Big Data" mühitində ümumi tendensiyadır. Mühasibat departamentləri və maliyyə menecerləri üçün mühasibat uçotunun rəqəmsallaşdırılması ənənəvi mühasibat uçotundan ağıllı mühasibat uçotuna qədər mühüm addımdır və həmçinin mühasibat uçotu funksiyası islahatlarının mühüm mərhələsidir. Sənaye və maliyyənin inteqrasiyası, eləcə də biznes səviyyəsində idarəetmə konsepsiyalarının inteqrasiyası maliyyə transformasiyasının qaçılmaz ehtiyacıdır. Sənaye və maliyyənin inteqrasiyası birtərəfli deyil. Bu, ikitərəfli inteqrasiyadır, mühasibatlıq biznesə, biznes isə mühasibatlığa yaxın olmalıdır. Gələcəyə ümidlə baxan rəqəmsal mühasibat transformasiyası hər bir maliyyə adamını funksiyalar əsasında daha təkmilləşdirməlidir. Böyük verilənlər dövründə insanların əvəzolunmaz qabiliyyət və üstünlüklərini rəqəmsal texnologiya vasitəsilə əvəz etmək lazımdır ki, onlar "əllərini azad etsinlər" və daha çox özlərinə vaxt ayıra bilsinlər. Mühasibat uçotunun rəqəmsal transformasiyası konsepsiyalar və ya metodologiyalar üzərində qalır və praktiki tətbiq hələ də azlıq təşkil edir. Müəssisə üçün rəqəmsal transformasiya prosesi uzunmüddətli planlaşdırmadır. Şirkətlər rəqəmsal transformasiyaya başlamaq üçün tələsməlidirlər. Onlar üçün daha yaxşı yol, ilk növbədə, rəqəmsallaşma olmalıdır. Orta və böyük şirkətlər sürətli Big Data mühitinə uyğunlaşmaq üçün rəqəmsal mühasibat transformasiyasını nəzərdən keçirməlidirlər.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Bell T.B., Carcello J.V. A decision aid for assessing the likelihood of fraudulent financial reporting // Auditing: A Journal of Practice & Theory, 2000. 19(1), 169-184.

2. J.R. Francis Auditing, hermeneutics, and subjectivity // Accounting, Organizations and Society, 1994, 19(3), 235-269.

3.https://publications.aaahq.org/jis/article-abstract/36/3/177/107/Digital-Transformation-in-Accounting-and-Auditing?redirectedFrom=fulltext

4. https://www.ey.com/en_gl/audit/innovation

5. https://eyfinancialservicesthoughtgallery.ie/wp-content/uploads/2017/04/Audit-of-the-Future-Accountancy-Ireland.pdf

6. https://certinia.com/learn/erp/erp-systems/

7. https://archdesk.com/blog/what-is-an-enterprise-resource-planning-system-a-complete-guide-to-erp-solutions/?utm_term=&utm_campaign=PMAX+MKT1&utm_source=adwords&utm_medium=ppc&hsa_acc=6761640972&hsa_cam=20372450559&hsa_grp=&hsa_ad=&hsa_src=x&hsa_tgt=&hsa_kw=&hsa_mt=&hsa_net=adwords&hsa_ver=3&gclid=Cj0KCQiA4NWrBhD-ARIsAFCKwWsoCSeGdm5YSBY_ln4BqvFblbROj_kVPohp7j_ hvpUYvm4uHKCgMhAaAqGiEALw_wcB

8. https://www.britannica.com/technology/artificial-intelligence

9. https://www.aspiresys.com/artificial-intelligence-in-finance-and-accounting/

10. https://bernardmarr.com/artificial-intelligence-in-accounting-and-finance/

**AUDİT 2023, 4 (42), səh. 15-24.**
**AUDIT 2023, 4 (42), pp. 15-24.**
**АУДИТ 2023, 4 (42), стр. 15-24.**

*Mubarak Mubariz Aydamirov,*
*Ph.D. Student,*
*Baku Business University,*
*Email: mubarekmubarizoglu@gmail.com*
*© M.M. Aydamirov, 2023*

## DIRECTIONS OF DIGITALIZATION OF ACCOUNTING AND AUDIT IN SALES ENTITIES

**A B S T R A C T**

**The purpose of the research** is to justify the directions of digitalization of the accounting and auditing profession by implementing ERP systems as a result of massive changes in technology over time.

**The methodology of the research -** considering the relevance of the topic at the present time, a comprehensive analysis was carried out during the study, then the most important points were assessed through the abstraction method, and finally, the final results were obtained through the synthesis method.

**The practical importance of the research** - is to determine the demand for digital technology in the accounting and audit system of sales enterprises and to evaluate the possibilities of its practical application.

**The results of the research -** directions for digitalization of accounting and auditing in sales enterprises are justified.

**The originality and scientific novelty of the research -** although accounting, audit and digital technologies of sales enterprises were studied separately in different periods, this article was the first to substantiate their comprehensive study and as a result, the need to use digital technologies in the accounting and audit system of sales enterprises was substantiated, theoretical and practical offers were given.

**Keywords:** ERP systems, digitalization, accounting and auditing, automation, transparent information.

*Айдамиров Мубарак Мубариз оглы,*
*докторант,*
*Бакинский Университет Бизнеса,*
*Email: mubarekmubarizoglu@gmail.com*
*© Айдамиров М.М., 2023*

## НАПРАВЛЕНИЯ ЦИФРОВИЗАЦИИ УЧЕТА И АУДИТА НА ПРЕДПРИЯТИЯХ СБЫТА

**Р Е З Ю М Е**

**Цель исследования** – обосновать направления цифровизации бухгалтерской и аудиторской профессии путем внедрения ERP-систем в результате масштабных изменений в технологиях с течением времени.

**Методология исследования** – учитывая актуальность темы в настоящее время, в ходе исследования был проведен комплексный анализ, затем путем метода абстрагирования оценивались наиболее важные моменты и, наконец, путем метода синтеза были получены окончательные результаты.

**Практическая значимость исследования** заключается в определении востребованности цифровых технологий в системе учета и аудита предприятий сбыта и оценке возможностей их практического применения.

**Результаты исследования** – была обоснована необходимость цифровизации бухгалтерского учета и аудита на предприятиях сбыта.

**Оригинальность и научная новизна исследования -** хотя учет, аудит и цифровые технологии предприятий сбыта в разные периоды отдельно изучались, в данной статье впервые было обосновано их комплексное изучение и, как следствие, была обоснована необходимость использования цифровых технологий в системе учета и аудита предприятий сбыта, а также были выдвинуты теоретические и практические предложения.

**Ключевые слова:** ERP-системы, цифровизация, учет и аудит, автоматизация, прозрачная информация.

*Məqalə redaksiyaya daxil olmuşdur: 21.09.2023*
*Təkrar işləməyə göndərilmişdir: 29.09.2023*
*Çapa qəbul olunmuşdur: 09.10.2023*

*Дата поступления статьи в редакцию: 21.09.2023*
*Отправлено на повторную обработку: 29.09.2023*
*Принято к печати: 09.10.2023*

*The date of the admission of the article to the editorial office: 21.09.2023*
*Send for reprocessing: 29.09.2023*
*Accepted for publication: 09.10.2023*